Tarix və onun problemləri, №4 2009

**KAMAL ƏSƏDPUR**
*aspirant*

# TƏLIM PROSESINDƏ INFORMASIYA TEXNOLOGIYALARINDAN ISTIFADƏ MÜASIR DÖVRIIN TƏLƏBI KIMI

Müasir dünyada baş verən yeni texnoloji dəyişikliklər bütün dünya əhalisinin həyat və iş tərzinə kifayət qədər təsir göstərmişdir. Bu, eyni zamanda bütün ənənəvi metodlara, xüsusilə təlim-tərbiyə, təhsil və idarəetmə metodlarına ciddi təsir etmişdir. Sosial həyatdakı asan əlaqə müxtəlif informasiya, elmi mövzular, təlim-tərbiyə və təhsilə aid məqalələrdən ibarət olan geniş məcmuələrə asan və sürətli nailiyyətlər əldə etməyə imkan vermişdir. Əgər dünənə kimi təhsil yalnız müəllim və tərbiyəçinin rəhbərliyi altında aparılırdısa və kitab təhsilin ən mühüm informasiya mənbəyi hesab olunurdusa, bugün yeni vasitə və əlaqələndirici mühitlə qarşı-qarşıyadır. Texnologiya sahəsindəki ən son yeniliklər olan yerli, regional və beynəlxalq informasiya kanallarının ölkənin informasiya məkanına daxil olması və yeni təlim texnologiyaları layihəçilərə, proqramistlərə, müəssisə rəhbərlərinə, təhsil proqramının icraçılarına - müəllimlərə, tələbələrə, şagirdlərə yeni metodlar təqdim etmişdir. Bu yenilik və dəyişikliklər daima inkişafdadır. Bu məqalədə biz texnologiyanın təsirini və rolunu müxtəlif aspektlərdən şərh etməyə səy göstərmişik.

Bir vaxtlar təlim-tərbiyə və təhsildə müəyyən zaman məhdudiyyətləri vardı. Təyin olunmuş yaşa qədər hər bir insan rəsmi təlimlərə qoşula və öz təhsilini davam etdirə bilərdi. Təlim-tərbiyə və təhsil ocağı ciddi qayda-qanunları olan dörd divar arasında olurlar, şagirdlər isə verilən elementar bilikləri mənimsəyirdilər. Bütün informasiya mənbələri yalnız müəllim hesab olunurdu, dərsi öz arzu və istəyinə uyğun olaraq aparırdı. Təhsildə o, əsas sima idi. Təhsildə "Müəllimin zülmü atanın məhəbbətindən yaxşıdır" prinsipi hökm sürürdü. Bu ənənəvi üsul illərlə təhsil prosesində başlıca yer tutmuş, indinin özündə də geridə qalmış ölkələrdə tətbiq olunur. Bu tədris metodu tarix boyu enişli-yoxuşlu olmuş, tədqiqatçılar və mütəffəkirlər tərəfindən tənqid və tədqiq obyektinə çevrilmişdir. Təhsilin keyfiyyəti, quru və cansız mədrəsə qayda-qanunlarına tabe olunur, eyni tədris üsulu, əzbərləməyə üstünlük verilir psixologiyasından istifadə olunurdu. Bugün texnologiya bu bölgü ilə başa çatmış və təhsili bir növ təsvir etmişdir.

Təhsil texnologiyası 1844-cü ildən məktəbə gətirilmişdir. Bu zaman dalğaların bir yerdən başqa yerə göndərilməsilə informasiya ötürülməsinin əsası qoyuldu. Beləliklə, təhsildə inkişaf başlandı. Təlim radiosundan tutmuş təlim televizoruna kimi-peyk antennası, CD, filrn, video, kompyuter, internet, mobil telefon və digərlərinin hər biri təhsilin təkmilləşməsində mühüm rol oynadı. Şübhə yoxdur ki, təhsilin başlanğıcında onun təkmilləşməyə, inkişafa və genişlənməyə ehtiyacı vardır. İnsanın elmi və biliyi artdıqda təbii ki, onun maraq dairəsi genişlənərək təhsil sahəsində yeni texnologiyaların tətbiqi ilə təlim və təhsil prosesində yeni üslublar yaranmışdır. (1)

İnformasiya və rabitə texnologiyasının inkişafı təhsilə bir proses kimi güclü təsir göstərmiş və bu təsir günü-gündən daha da genişlənməkdədir. Təlim və təhsil prosesinin həyata keçirilməsində texnologiyaların müsbət təsirinə heç kəsin şübhəsi yoxdur. Digər tərəfdən günbəgün informasiya texnologiyasının bacarıqları üzərində onların istehsal, təqdimatı və ötürülməsində yeni təlimi faktlar əlavə olunur. Bunlar da təhsildə yeni bir mahiyyət olar. Bütün tədqiqatlar və əldə olunmuş nəticələr təlim və tədris prosesində texnologiyaların təsirinin göstəricisidir. (2)

İnformasiya texnologiyası və yeni təlim və təhsil texnologiyası inkişaf etməkdə olan ölkələr üçün nailiyyətlərin artırılması, əlaqələrin inkişafı və təhsilin keyfiyyəti üçün potensial bir imkan olmaqla bərabər təhsil inkanlarının genişləndirilməsi üçün güclü bir vasitədir. Həmçinin sosial azlıqlar-qadın, qız, qocalar və bir sıra mədəni və ictimai səbəblərdən təhsildən məhrum olan qruplar, eləcə də maddi və zaman məhdudiyyəti üzündən adlarını təhsil mərkəzlərinə yazdıra bilməyənlər üçün texnologiya bütün nisbi şagird və müəllimlərin hər hansı bir fiziki məkanda olmaq zərurətini aradan qaldırır. (3)

**İnformasiya texnologiyası vasitəsilə təhsilin simasının dəyişdirilməsi**

Rabitə və informasiya texnologiyasının yarandığı gündən bəri ötən qısa müddət ərzində insanların həyat tərzində çoxlu dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərin mühüm bir hissəsini özündə birləşdirən istiqamətlərdən biri də təhsildir. Yeni texnologiyalar əsasında yaradılmış təhsillə təlim ənənəvi təhsil sistemində olan müvəffəqiyyətsizlikləri aradan qaldıra bilmiş və köklü dəyişikliklər əmələ gətirmişdir. (4)

Təhsil sistemində aparılan dəyişikliklər ənənəvi sistemlərdə zaman, məkan və təhsil mənbələrinin olan məhdudiyyətləri aradan qaldırmışdır. Bu iş təhsilin metodlarının və metodikasının dəyişməsinə səbəb olmuşdur. İnformasiya texnologiyası insanların qarşısında yeni imkanlar açır. Texnoloji imkanlardan formalaşan bu cür sistemlərdən düzgün istifadə təhsildə uğurların artmasına, məkan və zaman problemlərinin aradan qaldırılmasına səbəb olmuşdur.

Təhsil sahəsi üç istiqamətdə - klassik təhsil (c-learning), elektronik təhsil (e-learning), yeni əyani təhsil (o-learning) - şəklində formalaşmışdır. Bu təhsil formalarının hər birində tərəflər (müəllim və şagird) arasında əlaqə forması müxtəlifdir. Bu istiqamətlərin hər birində tədrisin və təhsilin hər birinin daha dərin öyrənilməsinə və yoxlanılmağa ehtiyacı vardır. Təhsilin növlərinin müqayisəsi (icbari, ənənəvi, qeyri-rəsmi) bir tərəfdən bu sahəni mübahisə obyektinə çevirmək və hər birinin qüsurları ilə yanaşı bacarıqsızlıqlarını göstərmək, digər tərəfdən isə bir neçə rabitə imkanları olan yeni təhsilin müsbət xüsusiyyətlərini - dərsin müəllimin psixoloji durumu ilə heç bir bağlılığı olmamasını, şagirdlərin daha keyfiyyətli təhsil iddiasını, bu sistemdə daha yaxşı bilik təqdim edilməsini - göstərmək məqsədi deməkdir. İşin belə təşkili şagirdlər üçün daha mükəmməl bir şərait yaratmış, müəllim və tərbiyəçiləri daha dərindən düşünməyə vadar etmişdir.

Yeni təhsil ən son texnologiyalardan istifadə etməklə bütün millətlər üçün təhsil imkanlarının bir çoxundan yararlanmağa şərait yaratmışdır. Buna misal olaraq elektronik təhsili göstərmək olar. Müasir dünyada baş verən sürətli dəyişikliklərin ahənginə nəzər salsaq, bilik əldə edilməsinin gündəlik bir zərurətə çevrildiyini görmüş olarıq. Əmək və ictimai işlərə daha çox vaxt ayrılması insan üçün asudə vaxt məhdudiyyətinə gətirib çıxarmışdır. Bu mənada sərfəli olan elektronik təhsildən istifadə bu qüsuru aradan qaldırar. İnsanların yaşayış yerləri iş yerlərindən və təhsil ocaqlarından nə qədər uzaqda yerləşərsə, yaxud da insanlar nə qədər öz vaxtlarının çoxunu nəqliyyatda və səfərlərdə keçirərsə elektronik təhsilin vacibliyi bir o qədər daha çox hiss olunur. Yəni bu təhsildən istifadə zamanı problem az olur. İnsanların avtomobildə, qatarda, gəmidə, təyyarədə hərəkəti zamanı həmçinin boş vaxtlarında ondan faydalanması üçün bir çox üstünlükləri vardır.

**Təhsilin yeni üsulları və yollan**
**(informasiya və rabitə texnologiyasının faydası)**

**1)MƏRHƏLƏLI TƏHSİL** - təhsilin bu növündə müxtəlif vasitələrin və inkişaf etmiş texnologiyaların köməyi ilə təhsil prosesinin keyfiyyətinin iki istiqamətdə (şaquli və

üfüqi) yaxşılaşdırılması və genişləndirilməsi təmin edilir. Üfüqi istiqamətdə təhsil prosesindəki köməkçi vasitələrin genişləndirilməsinə səy göstərilir. Burada məqsəd bu vasitələrlə keyfiyyətin artırılmasına nail olmaqdır. Şaquli istiqamətdə isə təhsilin dərinləşdirilməsi və onun dərk olunmasından bəhs olunur. Əsas məqsəd xərclərin azaldılması, keyfiyyətin artırılmasıdır.

Tədiqatçılar mərhələli təhsili fərdi üsulla biliyi genişləndirdiyi üçün yüksək qiymətləndirirlər. Təlimi CD-lər, təlim-tərbiyə proqramlan, flimlər, sinivizyon, kompyuter və s. texnologiyalardan istifadə ilə idrakı səviyyəyə çatdırmaq olar. Burada əsas məqsəd təhsil modellərində müvəffəqiyyətli öyrənmədir. Mərhələli öyrənmədə şagird tək deyil, yəni, ona köməkedici və təhsilverici təlimlər kömək edir. (5) Bu səbəbdən də təhsil mühitinin yeni texnologiyalarla zənginləşdirilməsi lazımdır. Çünki, belə hesab olunur ki, yaradıcılıq və tədqiqatçılıq arasındakı uyğunluq qarşıhqlı təsir şəklində yalnız təhsil keyfiyyətləri sferasında formalaşır.(ü)

**2)AKTIV TƏHSİL** - Təlim və təhsil texnologiyası informasiyanın yoxlanılması, hesablanması və təhlili üçün bir qrup alətlər tələb olunur. Bununla da, yeni informasiyanın tədqiqatı, təhlili üçün yeni bir iş proqramı tədim edilir. Bu proqrama görə şagirdlər bu cür işləyir və münasib vaxtda dünyəvi məsələlər üzərində də çalışmağı öyrənirlər. Burada əzbərləmə üçün zəmin yoxdur, təkrarlar təhsil məsələlərində müstəqil işləməsinə, idrakı fəalılığa üstünlük verilir. Bu yolla da informasiya texnologiyası müasir təhsili genişləndirir. Bəzən onun özü də bir istiqamət ola bilər. Yəni, burada şagirdlər nəyi öyrənmək istədiklərini seçə bilərlər.

3)**QRUP HALINDA TƏHSIL** - İCT-yə (informasiya və rabitə texnologiyası) əsaslanan təhsil şagird, müəllim, rəhbər və mütəxəssislər arasında qarşılıqlı əlaqəni gücləndirir. Bundan əlavə texnologiya şagirdlərə müxtəlif mədəniyyətlərdən olan insanlarla işləməyə imkan verir. Bu vasitə onların qrup və komanda təfəkkürünün, eləcə də əlaqələndirici bacarıqlarının inkişafına kömək edir.

**4)QARIŞI TƏHSİL** - Təhsilin bu növü informasiya texnologiyasını və təlim-tərbiyə prosesini bir yerdə təqdim edir. Bu proses ənənəvi qruplarda nəzəri və faktiki nəzəriyyə və elmi müzakirələr arasındakı uyğunsuzluğun aradan qalxmasına yardım edir.

**5)QİYMƏTLƏNDİRİCİ TƏHSİL** - İnformasiya və kommunikasiya texnologiyası ənənəvi metodlara qarşı çıxır. Şifahi şəkildə hər hansı bir mətn əsasında formalaşan və şagirdlər vasitəsilə verilən cəhətlər bir növ seçilmədir. Əzbərləmə və təkrar metodlarından daha çox, şagirdlər özləri verilmiş sualın cavabını axtarıb tapırlar.(7)

Ümumilikdə, informasiya texnologiyası əsasında yaradılmış təhsil iki mərhələni əhatə edir. Zəmin hazırlama mərhələsi (hazırlama və təqdimetmə) və təhsil mərhələsi. Zəmin hazırlama mərhələsində təhsil proqramı hazırlanır, ehtiyyata keçir və bir yerdən digər yerə göndərilir. Təhsil mərhələsində isə bütün diqqət yeni texnologiyalar vasitəsilə təhsil proqramının istifadəsinə yönəlir.

## Təhsil prosesində texnologiyalardan istifadə

1) Informasiya texnologiyası təhsilin bütün sahələrində olan tələbə və şagirdlərin fəaliyyətinə böyük təsir göstərmişdir. İnkişaf etmiş cəmiyyətlərin əksəriyyətində uşaqlar 5-6 yaşlarından təhsilin bütün sahələrində informasiya texnologiyasından istifadə edirlər. Məs:

Bir çox elmlərdə kompyuter və sensorlardan istifadə etməklə verilmiş məlumatlar redaktə olunur.

Riyaziyyat informasiya texnologiyasından modellərin verilməsi üçün, həndəsə isə kompyuterdən şəkillərin quruluşunun və çertyojunun əsas fiqur çəkilməzdən əvvəl modelini və surətini yaratmaq üçün istifadə edir.

Xarici dillərin tədrisi zamanı texnologiya mühüm rol oynayır.

Musiqi həvəskarlarını ifa etmək iqtidarına çatdırır. (təqdim olunan proqram əsasında). Hətta belə çatdığı musiqi alətinin təhsilini almamasına rəğmən.

Fiziki cəhətdən qüsurlu olan şagird və tələbələrin xüsusi təhsilə ehtiyacı vardır. İnformasiya texnologiyası bütün bu təhsil proqramlarını əlçatan edir. Belə tələbə şagirdlərə öz fikir və ehtiyaclarını sözlər, eləcə də şəkillər və formalar şəklində bildirməyə imkan verir.

2) Təlim və təhsil texnologiyasının genişlənməsi ilə tələb olunan biliklərin müxtəlif məntəqələrdə olmasına baxmayaraq əldə olunması asanlaşır. Amerikada yerləşən üç milyon nəfərlik sinif buna misal ola bilər. (8)

Tədqiqatlar göstərir ki, təlim və təhsil texnologiyasından istifadə şagird və tələbələrdə təhsil almağa stimulu artırmaqla yanaşı psixoloji durumların yaxşılaşmasına, dərsdənkənar məşğuliyyətlərə və yaradıcılığa etimadın artmasına, həyəcanın azalmasına və s. səbəb olmuşdur. Texnologiya müəllim və tərbiyəçinin rolunu bələdçiyə məxsus xüsusiyyətlərlə əvəz etməklə onu təlim və təhsil prosesinin rəhbərinə çevirmişdir. (9)

3) Texnologiyalardan istifadə nəticəsində gözəl və rəngli təsvirlər, maraqlı qrafika və səslər yaranır ki, bu da şagirdlərin işləmək həvəsini bir neçə dəfə artırır. Beləliklə, şagirdlər bu sayaq texnologiya ilə işləməkdən həzz alırlar.

Yeni təlim vasitələri əsasında yaradılmış təhsil nəzəriyyə və əzbərləmə vasitəsilə deyil, təhsilin hər bir növ və formasının icra olunması yolu ilə formalaşmışdır. Yeni texnologiya əsasında yaradılmış təlim və təhsil mənbələrinin əsasını şagirdlərin seçim imkanları təşkil edir. Bu texnologiyalarla iş zamanı şagird üçün sakitlik və stimulun yaranması ilə yanaşı qorxu, nigarançılıq və həyəcan minimum həddə enir.

4) Texnoloji əsaslarla yaradılmış təhsil şagirdlərin dərsdə öyrəndiklərini tətbiq etməsinə imkan verir. Məs: məlumatların seçilməsi, daxil edilməsi, proqramın hazırlanması və s.

Məlumatların dərsdən sonra dərhal tətbiq edilməsi bir tərəfdən şagirdlərin öyrəndiklərinin düzgün olub-olmamasını üzə çıxarır, digər tərəfdən isə onlara öyrəndiklərinə nəzarət etməyə imkan verir. (10)

Yeni texnologiya və vasitələr stimulverici, gücləndirici, istiqamətləndirici və yardımçı olmaqla yanaşı həmçinin təlim və təhsili daha məhsuldar, daha fərdi və daha təsirli edə bilər. Bütün bunlar təlim-tərbiyənin bünövrəsinin daha çox elmi olmasını təmin edər.

5) Texnologiyaya əsaslanan təhsildə əsas, dərsdə şagirdlərin və müəllimlərin təlim vasitələri olan kompyuter, CD, disket, internet sayt, e-meyl və s. səmərəli istifadə etməsidir. Çünki, bunlardan istifadə təhsili asanlaşdıra və şagirdlərin elmi səviyyələrinin artmasına səbəb ola bilər. Bu üsul şagirdlər üçün ona görə faydalı və təsirlidir ki, təhsilin və onların təlim fəaliyyətinin səmərəliliyi tədris müəssisəsinin və müəllimlərin gəlirini yaxşılaşdırır. Aparılmış tədqiqatlar göstərir ki, təhsilin 75%-i görmə yaddaşı vasitəsilə qavranılır. Texnologiya bu yolu hamarlamaqla yanaşı təhsili bütöv və təsiredici edir.

6) Xərclərin azaldılması təlim və təhsil texnologiyasının digər bir üstünlüyüdür. Müasir dünyanın, xüsusilə inkişaf etmiş və inkişafda olan ölkələrin təhsilindəki narahatlıq və çətinliklərdən biri də cəmiyyətin savadsız təbəqəsi üçün rəsmi təhsilə maliyyə mənbələrinin çatışmamasıdır. Elektronik təhsil xərcləri 40%-dən 60%-ə kimi azaldır. Bu səbəbdən də bu endirim cəmiyyətin təlim və təhsilini qoruyanlar üçün münasib bir güzəşt hesab olunur. Təhsilin görünən xərcləri ilə yanaşı görünməyən xərcləri də vardır. Görünməyən xərclərə misal olaraq gediş-gəliş haqqı, məskunlaşma və qidalanmanı göstərmək olar. Təhsil prosesinin görünməyən xərclərinin ödənilməsində yerli olmayan tələbələr üçün bir sıra çətinliklər yaranır. Təlim və təhsil texnologiyası bu sahədə də qə-

naətə və daha tez nəzərə çarpan xərclərin azalmasına səbəb olur. Hər bir təhsil prosesindəki mühüm xərclərdən biri də şagirdin təlim və təhsilə sərf etdiyi zamanın itirilməsidir. Təlim rəhbərləri təhsil müddətinin qısa vı faydalı olmasını təkid edirlər. Şagirdlər isə qısa müddətli kursları daha yaxşı qavrayırlar. Eləcə də təhsil ocağına gedib-gəlməyə sərf olunan zamanın müddəti azalır.

7) Təhsil və təcrübə mənbələrinin daha asan əldə edilməsi. Yeni tədqiqat proqramlarının hazırlanması və elektron kitabxanaların yaradılması həvəskarlar üçün dünyanın ən uzaq nöqtəsində belə yeni tədqiqatlar aparmaq imkanı yaratmışdır. Bugün onlarla, bəlkə də yüzlərlə müraciət olunan kitablar yalnız müəllifin və mövzunun adlarının axtarılması ilə CD-lərdə tədqiqatçıların ixtiyarına verilir. Hətta tədqiqatçıların diqqət mərkəzində olan ən mötəbər mənbələrdən belə, qısa zaman müddətində mövzular əldə etmək mümkündür. Malvi Fransis deyir: "Tələbələr istəyirlər ki, günün 24 saatında da kitabları və mənbələri əldə etmək imkanları olsun". Bu səbəbdən də onlar "on lin" kitablardan istifadəni üstün tuturlar. Qalın çap kitablarını isə axtarmağa hövsələləri yoxdur.

8) Şagirdlərin arasındakı fərqlərə diqqət yetirilməsi. şagirdlərin dərs öyrənmə sürəti müxtəlifdir. Müəllim təlim metodunu elə planlaşdırmalıdır ki, şagirdlər öz bacarıqlarına uyğun sürətlə inkişaf edə bilsinlər. Sadə, lakin mühüm olan bu məsələ elektronik təhsildə yaxşı düşünülmüşdür. Bu metodda şagirdlər başqaları ilə deyil, özləri ilə müqayisə olunurlar. Buna görə də şagirdlərin öyrənmək və bilik dərəcələri arasındakı fərq nəzərə alınmışdır. Bu cəhətə əməl etməklə ağıllı və istedadlı şagirdlərin kiçik bir fürsətdə belə daha çox inkişaf etmək və daha çox mövzular öyrənmək imkanı olur. Bu şagirdlər həmişə qorxusuz və stressiz öz səhvlərini araşdırır və öyrənirlər. Bu iş qorxunu azaldır və şagirdlərin daxili aləmi ilə yanaşı yaradıcılığını da inkişaf etdirir. (12)

9) Təhsil mənbələrinin aydınlaşdırılmasında sürətli imkanlar. Müxtəlif təhsil kurslarındakı dərslərin fasilə uyğun olmaması, günün ehtiyac və tələbləri ilə təhsil sistemi arasındakı çatışmamazlıqlardan birini təşkil edir. Bu prosesdə olan təsiredici amillərdən biri də idarəçiliyə mane olan nizamnamələrin təlim-tərbiyə qayda-qanunlarına hakim olmasıdır. Məs: Təhsil mənbələrinə dəyişikliklərin edilməsi və təsdilənməsi o qədər uzun çəkir ki, cəmiyyətin bugünki tələbləri ilə üst-üstə düşmür. Təhsil proqramının tərkibinə diqqət yetirilməsinin əhəmiyyəti onun müasir elmi hansı səviyyədə əks etdirməsi ilə bağlıdır. Meyarların ifadə olunması zamanı kredit yazılır. Biliyin sürətli dəyişməsi keçmiş anlayış və nəzəriyyələrin ləğv olunmasına səbəb olur. Buna görə də o, dərs proqramında müzakirəyə qoyulmuş mövzuların köhnəlməsinə və ləğv olunmasma səbəb olmuşdur.

Təhsilin məzmunu şagirdlərin ehtiyacları ilə nə qədər bağlı olarsa, bir o qədər daha çox stimulverici olar. İnformasiya texnologiyası öz təbii keyfiyyətləri ilə bu imkanları mümkün edir. Burada müasir elm və biliklə bağlı olan mövzular mümkün qədər qısa zaman müddətində şagirdlərin istifadəsinə verilir.

## *ƏDƏBİYYAT*

1. İK-m təlimdə rolu, (WWW.ISFAHAN4U.COM 1385)
2. Məhəmməd Xani Məsud, kompleks təlim, 1386 (WWW.MASOUD42QYAHOO.COM)
3. Fəttahiyan Hüsaməddin, İKT-in təlimdə rolu, 1384. (WWW.JEY-VALIEASR-AR.ISFSCHOOLINET)
4. Foturçi Məhəmməd Mehdi, Uzaq təlimdən universitetə qədər, 1386.
5. Məhəmməd Xani Məsud, Kompleks təlim, 1386 (WWW.MASOUD42QYAHOO.COM)
6. XXI əsrin müəllimi 1386 (WWW. WEBLOG .HA JIZADEH.INFO)

7. Həsənzadə Məhəmməd, İnformasiya texnologiyası və onun təlim prosesində tətbiqi, 1386.
8. Tacik Mehrdad, Miliyonlarla şagirdi olan bir sinif, 1386.
9. Şah Məhəmmdi Əbdülrza, kommunikasiya texnologiyalarının təlim prosesində rolu (WWW.NEDAYEAZAD.COM).
10. Fəzli Yədulla, İyirmi birinci əsrdə təhsil və islahat istiqaməti üzrə, 2007.
11. Abbas Şikari, Kaşanın elektron təhsili, 2008. (WWW.KHOUZESTAN.ISNA.IR)
12. Şagirdlərin təlim və tərbiyəsində yeni ideyalara yeni baxış, İran qəzeti, № 3103/1384.

## ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ, КАК ТРЕБОВАНИЕ СОВРЕМЕННОЙ ЭПОХИ

Статья посвящена очень актуальной, волнующей всю педагогическую общественность теме. В ней говорится об успехах, достигнутых в результате использования в процессе обучения развивающихся с каждым днем информационных технологий. Рассматривая эту проблему в различных ракурсах, автор высказывает предположения, позволяющие решить ее, указывает, что информационные технологии являются важным средством ускорения, активации реформ и изменений в области образования.

Автор приходит к следующему выводу - при рациональном использовании информационных технологий в процессе обучения, обеспечивается развитие качественного и современного образования, укрепится связь между образованием и электронными средствами обучения, облегчится творческое использование новых, развивающих методов в поэтапном и активном образовании.

## THE USE OF INFORMATION TECHNOLOGIES IN THE EDUCATION (TRAINING) PROSES AS THE NEED OF CONTEMPORARY PERIOD

The article is devoted to one of the actual subjects that bothers the pedagogical publicity. The article deals with the training successes of information technologies developing day by day, gained in the process of training.

The author analyses this problem with different point of views, puts forward some proporsals that can solve any kind of problems and comments that the information technology is one of the main ways, accelerating the changes and reforms in the field of education as well.

The author comes to conclusion that if information technologies are used fruitfully in the process of training, the quality and modern development of education will be under quarantee.

The tie between education and electronic devices will strengthen, the ways of step by step methods in the process of education and their creative use will make it easy.

***Rəyçilər: dos.F.Məmmədov, t.e.d.R.C.Süleymanov.***

***BDU Pedaqogika kafedrasının 02 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №15).***